**"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 9, maddə 685; 2012, 3, maddə 197, 4, maddə 289, 6, maddə 532; 2016, 1, maddə 76, 11, maddələr 1804, 1828, 12, maddə 2086; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyul tarixli 1550 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddə "10.4-cü," sözlərindən sonra "11.5-ci," sözləri əlavə edilsin, "və təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının" sözləri "attestasiyasının, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin (attestasiyasının)" sözləri ilə əvəz edilsin;

1.2. 2.3-cü bənddə "ümumi təhsil müəssisələrində təhsilverənlərin attestasiyasının həyata keçirilməsi üzrə" sözlərindən əvvəl "ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (attestasiyası) istisna olmaqla, təhsilalanların attestasiyasının aparılması qaydasının müəyyən edilməsi üzrə," sözləri əlavə edilsin;

1.3. 2.4-cü bənddə "və 29.0.42-ci" sözlərindən əvvəl ", 29.0.29-cu (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsinin (attestasiyasının) həyata keçirilməsi üzrə)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin, tabeliyində təhsil müəssisələri olan icra hakimiyyəti orqanlarının və özəl ali təhsil müəssisələrinin təklifləri əsasında, təhsilalanların attestasiyasının (ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (attestasiyası) istisna olmaqla) aparılması qaydasını altı ay müddətində müəyyən edib, həmin normativ hüquqi aktın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 oktyabr 2017-ci il
1633